# Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib

İyunun 12-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Res-









publikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab Hulusi Akar və Gürcüstanın Müdafiə naziri cənab Levan İzoriya arasında üçtərəfli formatda görüş keçirilib.

Müdafiə nazirləri və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev görüşdən əvvəl Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin abidəsini, eləcə də Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının məzarlarını ziyarət edərək önlərinə gül dəstələri qoyub, xatirələrini hörmət və ehtiramla yad ediblər.

Görüşdə Müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə ediblər. Tərəflər, həmçinin üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb və kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

**“Qəbələ”**

# Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qəbələyə səfər edib





***Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna iyun ayının 7-də tanışlıq məqsədi ilə Qəbələ rayonuna səfər edib.***

Həmin gün səfirin Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevlə görüşü olub.

Görüşdə RİH başçısı Bavitlunq Vanlalvavnaya Qəbələnin tarixi keçmişi, bu günü, iqtisadiyyatı, sosial və mədəni həyatı haqqında ətraflı məlumat verib.

Qeyd olunub ki, ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində son illər rayonun iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının, o cümlədən bağçılığın, üzümçülüyün, tərəvəzçiliyin, tütünçülüyün, baramaçılığın və heyvandarlığın inkişafı istiqamətində çox böyük işlər görülüb və müsbət nəticələr əldə olunub.

Rayon icra hakimiyyətinin başçısı Qəbələdəki müasir emal müəssisələrinin istehsal etdiyi məhsulların dünyanın bir çox ölkələrinə ixrac olunduğunu diqqətə çatdırıb.

Regionun təbii gözəlliyindən və insanlarının qonaqpərvərliyindən söz salan Səbuhi Abdullayev rayonun turizm infrastrukturu və potensialı barədə səfirə geniş məlumat verib. Görülən işlərin nəticəsində Qəbələnin bu gün dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrildiyini, müxtəlif beynəlxalq tədbirlərə-dövlət başçılarının zirvə görüşlərinə, beynəlxalq musiqi festivallarına, rəsm sərgilərinə, idman yarışlarına və s. ev sahibliyi etdiyini bildirib.



Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən hindistanlı diplomat bölgəyə ilk səfəri olduğunu və Qəbələnin onda yüksək təəssürat yaratdığını söyləyib. Bavitlunq Vanlalvavna Hindistan və Azərbaycan arasında ikitərəfli əməkdaşlığın müsbət nəticələrindən söz açıb.

Görüş zamanı həmçinin ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Səfir rayonun tarixi-mədəni yerləri, təbiəti, turizm kompleksləri və sənaye müəssisələri ilə yaxından tanış olub.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**